# Saatlı: Muğanda tərəqqinin yeni ünvanı

***❐ Saatlı aqrar sahədə güclü iqtisadi potensiala malik olan rayonlardan biridir. Muğan düzündə yerləşən bu bölgə təkcə bərəkətli torpağı ilə deyil, həm də əməyə, zəhmətə bağlı sadə, işgüzar insanları ilə seçilir. Son illər rayonda bütün sahələrdə davamlı inkişaf əldə olunub, kənd təsərrüfatı istehsalı və emalı sahələri genişlənib, məhsul istehsalı artıb, bütün bunların nəticəsində əhalinin güzəranı daha da yaxşılaşıb.***



Hər dəfə Saatlıya gələndə, istər rayon mərkəzində, istər kəndlərdə bir qayda olaraq bir və ya bir neçə sosial obyektin, yaxud istirahət guşələri, parkların tikintisinə başlandığının şahidi oluram. Heç iki-üç ay keçmir ki, həmin obyektlərdə inşaat işlərinin uğurla başa çatdığı məlum olur. Bu davamlı inkişaf və tərəqqi rayon sakinlərini, iş adamlarını daha da ruhlandırır, lakin onlar bununla kifayətlənmir, qarşılarına yeni böyük hədəflər qoyur, yeni arzu və həvəslə daha möhtəşəm layihələri həyata keçirməyə çalışırlar.

## Saatlıda abadlıq marafonu

Adamda elə təsəvvür yaranır ki, rayonun bütün əhalisi – uşaqdan böyüyə qədər, demək olar ki, hamı böyük, davamlı abadlıq, quruculuq marafonuna qoşulub. İnsafən burada işlər böyük zövq və həvəslə görülür ki, bu qeyri-adi səliqə-sahmanın şahidi olan hər kəsin qəlbindən "afərin" nidası qopur. Bəli, bu gün Saatlıda abadlıq-quruculuq sahəsində görülən işlərin miqyası və keyfiyyəti həqiqətən heyrətamizdir.

Saatlıda bu qədər genişmiqyaslı tikinti-quruculuq, abadlıq işlərinin uğurla davam etdirilməsini şərtləndirən əsas amillər hansılardır? Bu sualı Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarova ünvanlayanda, müsahibim dərin məmnunluq hissilə əvvəlcə bunları dedi:

– Müstəqil Azərbaycanın, o cümlədən Saatlı rayonunun bütün uğurlarının əsasında Azərbaycan Prezidenti, möhtərəm İlham Əliyevin yeritdiyi müdrik daxili və xarici siyasət dayanır. Bu siyasətin əsas istiqamətləri ulu öndər Heydər Əliyev tərəfindən müəyyən edilib. Bu siyasət Azərbaycanı parlaq gələcəyə, tərəqqi və intibaha aparır.

Hesab edirəm ki, son illər Azərbaycanın hər bir bölgəsində, eləcə də Saatlıda görülən böyük işlər möhtərəm Prezidentimiz İlham Əliyevin imzaladığı və yerinə yetirilməsinə şəxsən nəzarət etdiyi regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurlu icrasının məntiqi nəticəsidir. Saatlılılar hamı kimi bu inkişafı dəstəkləyir və ona öz töhfələrini verməyə çalışırlar.

S.Cabbarov sözünün davamında dedi ki, Azərbaycan dövlətinin başçısı cənab İlham Əliyev regionlara etdiyi səfərlər çərçivəsində son 9 ildə 7 dəfə Saatlıda olmuş, görülən işlərlə maraqlanmış, əhali ilə görüşlər keçirərək qaldırılan məsələlərin həlli ilə bağlı öz tapşırıqlarını vermiş, mühüm sosial layihələrin icrası istiqamətində sərəncamlar imzalamışdır. Sözsüz ki, bütün bunlar rayon sakinlərinin böyük ruh yüksəkliyinə və əmək coşqunluğuna stimul vermiş, əmək kollektivlərini iqtisadiyyatda, kənd təsərrüfatında, sosial-mədəni həyatda daha mühüm nailiyyətlər qazanmağa ruhlandırmışdır.

Siraqəddin müəllim tamamilə haqlıdır. Saatlının sosial-iqtisadi inkişafını müəyyən edən göstəricilərə nəzər yetirəndə məlum oldu ki, ümumiyyətlə, ötən dövr ərzində rayonun iqtisadiyyatının davamlı inkişafı istiqamətində görülən işlər hər il öz bəhrəsini vermiş, makroiqtisadi sabitlik təmin olunmuşdur. 2017-ci ilin birinci rübü ərzində 10,9 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur. Rayonda məhsul buraxılışının həcmi 16,9 faiz artaraq 36166 min manat olmuşdur ki, bunun da 85,2 faizi özəl sektorun payına düşür. Cari ilin birinci rübü üzrə bir işçiyə hesablanmış orta aylıq əmək haqqı 267,6 manat olmuşdur. Bu, keçən ilin eyni dövrü ilə müqayisədə 2,4 faiz çoxdur.

## Muğanın ağ qızılı

Pambıqçılıq tarixən Muğana şan-şöhrət, ruzi-bərəkət, bolluq gətirmişdir. Bəllidir ki, Saatlı uzun illər pambıqçılıq sahəsində yüksək nəticələr əldə etmiş rayonlardan biridir. Xatırlayırsınızsa, 1970-ci illərdə rayonda hər il rekord miqdarda pambıq məhsulu istehsal olunaraq emal olunurdu. Saatlı fermerləri yenidən bu sahədə fərqlənmək, öncül sıralarda yer tutmaq əzmindədirlər.

Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyevin bu il mart ayının 28-də Saatlı rayonuna növbəti səfəri zamanı pambıqçılıqla məşğul olan 22 rayonun nümayəndələri də iştirak etməklə, pambıqçılığın inkişafına dair növbəti respublika müşavirəsi keçirilmişdir. Müşavirədə dövlət başçısı kənd təsərrüfatının digər ənənəvi sahələri ilə yanaşı, pambıqçılığın da respublikanın sosial-iqtisadi inkişafında aparıcı sahə olduğunu bildirmiş, artıq bu sahədə əsaslı dönüşün qoyulduğunu diqqətə çatdırmaqla, qarşıya böyük vəzifələr qoymuşdur.

Sevindirici haldır ki, ötən ildən başlayaraq, Saatlıda pambıqçılığın inkişafı sahəsində ciddi addımlar atılmışdır. 2016-cı ilin təcrübəsi, pambıqçılığın inkişafı ilə bağlı yaradılmış hərtərəfli şərait, müasir innovativ texnologiyaların tətbiqi, eləcə də dövlət tərəfindən göstərilən maliyyə və digər zəruri dəstək istehsalçıları daha da ruhlandıraraq, onların pambıq əkininə maraqlarını xeyli artırmışdır.

Yeri gəlmişkən, 2017-ci ildə rayonda pambıq əkini sahələri daha da genişləndirilib. Hazırda rayonda 2652 nəfər, onların da böyük əksəriyyəti iri fermer təsərrüfatı olmaqla, pambıq məhsulu becərir. Fermerlər rayonda fəaliyyət göstərən "MKT-İstehsalat Kommersiya" MMC, "Şamo" MMC, "CTS-Aqro" MMC, "Saatlı Kənd Təsərrüfatı" MMC və "İnnovasiya təsərrüfatı" şirkətləri ilə müvafiq müqavilələr bağlayıblar. Hazırda tarlalardan bol məhsul toplamaq üçün gərgin iş gedir.

Bir məqamı da vurğulamaq lazımdır. Belə ki, pambıqçılığın inkişafı, rayonda məşğulluğun artırılmasına, daha çox insanın işə cəlb olunmasına şərait yaradıb. Xahiş edirəm bu rəqəmə diqqət yetirin: Bu il pambıqçılıqda çalışanların sayı 10 min nəfəri ötüb. Bunun da 6 min nəfərdən çoxunu gənclər təşkil edirlər.

İndi əsas məqsədlərdən biri geniş profilli traktorçu-maşinist, təmirçi-çilingər ixtisasları üzrə kənd təsərrüfatı kadrları hazırlamaqdır. Rayon rəhbərliyi çalışır ki, rayondakı peşə liseyinin bu sahədə səmərəli fəaliyyətini təşkil etsin. Eyni zamanda, bütün imkanlardan istifadə edilir ki, ali təhsilli kənd təsərrüfatı mütəxəssisləri, xüsusilə də aqronomlar və bitkiçilik üzrə digər mütəxəssislər bu sahənin inkişafına cəlb edilsin.





## Taxıl zəmilərinin bərəkəti

Saatlı ölkəmizin taxıl istehsalı və tədarükü sahəsində böyük imkanları olan bölgələrdəndir. 2017-ci ilin məhsulu üçün 2016-cı ilin payızında 17520,5 hektar sahədə buğda, 2946 hektar sahədə isə arpa əkilmişdir. Hazırda rayonda taxıl biçini kampaniyası uğurla davam etdirilir. Rayon fermerləri bu il ötən ildə olduğundan xeyli çox buğda və arpa toplamaq arzusundadırlar. İlk nəticələr göstərir ki, onlar bu hədəfə uğurla nail ola biləcəklər.

Saatlıda taxılçılıq mədəniyyəti ənənəvi olaraq yüksəkdir. Burada hər hektardan 50 və daha çox sentner məhsul alan fermerlər çoxdur. Onlar çalışırlar ki, buğda və arpa əkin sahələrinin məhsuldarlığını daha da artırsınlar. Bu məqsədlə saatlılı fermerlər respublikamızın elmi müəssisələri tanınmış alim və mütəxəssislərlə işgüzar əlaqələrini genişləndirir, daha yüksək reproduksiyalı taxıl sortları əldə edərək onların ən yüksək aqrotexniki qaydada becərməyə çalışırlar. Yeri gəlmişkən, Saatlı özünü artıqlaması ilə taxılla təmin edən bölgələrimizdən biridir. Rayonda kartof, bostan, tərəvəz məhsullarının istehsalı və tədarükü davamlı olaraq artır.

Saatlıda pambıq, taxıl, kartof, bostan, tərəvəz məhsullarının ilbəil artımının təmin olunmasında rayon melioratorlarının danılmaz əməyi vardır. Rayonun torpaqlarının su təminatının yaxşılaşdırılması üçün meliorasiya-irriqasiya tədbirlərinin həyata keçirilməsi sahəsində 2017-ci ilin birinci rübü ərzində 71,45 kilometr kollektor-drenaj şəbəkəsi lildən təmizlənmişdir. Ümumi uzunluğu 103 kilometr olan suvarma kanallarında 268 min kubmetr lildən təmizləmə işləri aparılmışdır. Bundan əlavə, 31 ədəd hidrotexniki qurğu, 2 ədəd istehsalat binası, 6 ədəd hidropost və 2 nasos stansiyası cari təmir edilmişdir. Araz çayında nasos stansiyaları yaxınlığında mexanizmlərlə 40 min kubmetr məcratəmizləmə işləri yerinə yetirilmişdir.

Heyvandarlıq sahəsində rayonda cari ilin ilk aylarından 22 kəndli-fermer təsərrüfatı, 1 dövlət müəssisəsi fəaliyyət göstərmiş, rayon baytarlıq idarəsi heyvanlar arasında baş verə biləcək xəstəliklərin qarşısının alınması üçün müalicə və profilaktiki tədbirləri genişləndirmişdir. 2017-ci ilin birinci rübü ərzində 1673,6 ton ət diri çəkidə, 8512,7 ton süd və 1900 min ədəd yumurta istehsal edilmişdir. Heyvandarlıq sahəsində artım müşahidə edilmişdir. Belə ki, hazırda rayonda bütün təsərrüfat kateqoriyaları üzrə iri buynuzlu mal-qara 67256 baş, o cümlədən inək və camışların sayı 32085 baş, qoyun və keçilərin sayı 113806 baş olmuşdur. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə iri buynuzlu mal-qara 77 baş, qoyun və keçilərin baş sayı 2338 baş artmışdır.

Dövlət Proqramının qəbul edilməsindən ötən müddət ərzində sahibkarlığın inkişafı dəstəklənməklə yeni iş yerlərinin açılmasına xüsusi fikir verilmiş, yerli ehtiyatlar nəzərə alınmaqla iş adamları və sahibkarların cəlb olunması ilə qeyri-dövlət sektoruna hərtərəfli şərait yaradılmışdır.

## Yollar yenidən qurulur

Muğanda, başqa bölgələrdə olarkən dəfələrlə ən müxtəlif adamların dilindən eşitmişəm ki, əgər respublikamızda ən yaxşı yollar üzrə müsabiqə keçirilsəydi, Saatlı rayonu birinci yer tutardı. Yeri gəlmişkən, Prezident İlham Əliyev Saatlıda sözügedən müşavirəni keçirdən cəmi bir gün sonra "Saatlı rayonunun Saatlı-Musalı-Dəlilər-Novruzlu avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" sərəncam imzalamışdır. Hazırda bu sənəddən irəli gələn vəzifələr uğurla həyata keçirilir.

Saatlı Rayon İcra Hakimiyyətində mənə dedilər ki, rayonun 51 mindən çox sakininin yaşadığı, 19 yaşayış məntəqəsini birləşdirən Saatlı-Sarıcalar-Qara Nuru-Şirinbəyli-Fətəlikənd-Azadkənd avtomobil yolu ondan istifadə edənlərin çox rahat gediş-gəlişini təmin edəcək, eyni zamanda yük və sərnişin daşınmasını xeyli yaxşılaşdıracaqdır. Bir məsələni də qeyd edim ki, sözügedən yerli əhəmiyyətli yol kənd yaşayış məntəqələrini magistral avtomobil yolları ilə birləşdirəcəkdir ki, bu da bilavasitə təsərrüfatlarda çalışanlar üçün daha rahat və faydalı olacaqdır.

Rahat yollar göydən peyda olmur, bunun üçün vəsait xərcləmək, zəhmət çəkmək lazım gəlir. Azərbaycan dövləti bütün bölgələrin, o cümlədən Saatlının yol infrastrukturunun sürətli inkişafı üçün heç nəyi əsirgəmir. 2017-ci ilin birinci rübündə 32500 kvadratmetr yerli əhəmiyyətli avtomobil yollarının saxlanılmasına 224.3 min manat vəsait sərf edilmişdir. Uzunluğu 14 kilometr olan Saatlı-Musalı-Dəlilər-Novruzlu avtomobil yolunun tikintisi sahəsində işlər davam etdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 29 mart 2017-ci il tarixli 2782 saylı sərəncamı ilə həmin avtomobil yolunun tikintisinə 3,8 milyon manat vəsait ayrılmışdır. Uzunluğu 39 kilometr olan Saatlı-Sarıcalar-Qara-Nuru-Şirinbəy-Fətəlikənd-Azadkənd avtomobil yolunun yenidən qurulması başa çatdırılmışdır. Saatlı camaatı dərin qürur hissi keçirir ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev 28 mart 2017-ci il tarixdə Saatlı rayonuna səfəri zamanı həmin avtomobil yolunun yenidənqurmadan sonra açılış mərasimində iştirak etmişdir.



Son illər rayonda aparılan abadlıq, tikinti-quruculuq işləri, sosial infrastruktur sahəsində həyata keçirilən tikintilər dövlət başçısının tapşırıq və göstərişləri ilə ayrılmış vəsaitlər hesabına yerinə yetirilmiş, eyni zamanda, daxili imkanlardan, yerli resurslardan maksimum istifadə edilməsinə diqqət artırılmışdır. 2017-ci ilin birinci rübü ərzində 1623 kvadratmetr sahədə yaşayış binalarının fasad hissələrinin suvaq edilərək rənglənməsi, 1374 kvadratmetr sahədə dam örtüklərinin yenilənməsi, 238 kvadratmetr sahədə pəncərələrin yeni, plastik pəncərələrlə əvəz edilməsi, 434 kvadratmetr sahədə "ağlay" piltələrin düzülməsi, həyətyanı ərazilərə 275 kvadratmetr sahədə səki daşlarının düzülməsi işləri icra olunmuşdur.

Saatlı şəhərinin M.Əliyev və Babək küçələrində, ümumilikdə, 25400 kvadratmetr sahəyə qumçınqıl qatı verilmişdir. Rayonun müxtəlif ərazilərində 37 min ədəd müxtəlif meyvə ağacları, dekorativ, həmişəyaşıl ağaclar əkilmiş, meşə zolaqlarının, yaşıllıqların və gül kollarının qorunmasına xidmət göstərilmişdir.

## İnsana qayğı ön plandadır

2017-cı ilin birinci rübü ərzində şəhid ailələrinin, Qarabağ müharibəsi, Çernobıl və Əfqanıstan əlillərinin, digər imtiyazlı vətəndaşların, xəstə və imkansızların, məcburi köçkünlərin, bir sözlə, ehtiyac və qayğıları ilə bağlı müraciət edən hər bir şəxsin probleminin həllinə diqqətlə yanaşılaraq, maddi yardımlar, pul və ərzaq köməkliyi, evinin bərpa və təmiri ilə bağlı tikinti materialları verilməsi ilə əlaqədar köməkliklər, mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması üçün ən zəruri yardımlar edilmişdir.

Güzəştli ailələrin mənzil növbəsi uçotu yenidən dəqiqləşdirilərək Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim olunmuşdur ki, hazırda növbəlik siyahısına uyğun olaraq bir qrup şəhid ailəsinə və Qarabağ əlilinə fərdi yaşayış evinin tikilməsi ilə bağlı işlər aparılmaqdadır.

Məşğulluq Proqramında nəzərdə tutulan tədbirlər ardıcıl olaraq yerinə yetirilir. Rayon Məşğulluq Mərkəzində 2017-cı ilin birinci rübü ərzində 331 nəfər qeydiyyata alınmışdır ki, onlardan 64 nəfərini qadınlar, 101 nəfərini isə gənclər təşkil edir. Qeydə alınan vətəndaşların 44 nəfəri kadr axıcılığı, 2 nəfər hərbi xidmətdən sonra, 30 nəfər digər səbəbdən, 250 nəfəri isə ilk dəfə iş axtarandır ki, bunların da 62 nəfərini ali və orta ixtisas məktəb məzunu, 40 nəfərini isə bir ildən artıq əmək fasiləsi olanlar təşkil edir. Qeydə alınan vətəndaşlardan 13 nəfərinə işsizlik statusu təyin olunmuşdur.

Yeni iş yerlərinin açılması ilə əlaqədar görülmüş məqsədyönlü tədbirlər nəticəsində 2017-cı ilin birinci rübü ərzində mövcud olan 469 vakansiyadan 250 yeni iş yerinə göndəriş verilmişdir.

Dövlət gənclər siyasətinə uyğun olaraq, gənclərin asudə vaxtlarının səmərəli və məzmunlu şəkildə təşkili, sosial-siyasi fəallıqlarının artırılması, idmanın kütləviliyinin təmin olunması məqsədilə son illər ölkəmizin hər yerində olduğu kimi, Saatlıda da lazımi şərait yaradılmış, müasir Olimpiya İdman Kompleksi, Gənclər Mərkəzi, Şahmat məktəbi tikilmişdir. Bu, həqiqətən, rayon gənclərinin və idmançılarımızın həyatında əlamətdar hadisə olmuşdur.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin yeniyetmə gənclər və şagirdlərin həyatında əlamətdar hadisə kimi yadda qalan mühüm təşəbbüslərindən və diqqət yetirdiyi məsələlərdən biri "Ölkəmizi tanıyaq" hərəkatıdır.

Saatlı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Ölkəmizi tanıyaq" devizi altında yuxarı sinif şagirdlərindən 40 nəfər 5 nəfər müşayətçinin iştirakı ilə 16-19 mart 2016-cı il tarixlərdə Gəncə şəhəri, Şəmkir və Göygöl rayonlarında olmuş, bu yerlərin tarixi, zəngin mədəni irsi, sosial-iqtisadi inkişafı barədə ətraflı məlumatlar əldə etmiş, ölkəmizin Qərb bölgəsi haqqında geniş bilgilərlə rayona qayıtmışlar.

Saatlılılar doğma yurdun təəssübünü çəkən saf, səmimi, əməksevər insanlardır. Onlar hazırda müstəqil Azərbaycanda hökm sürən güclü sabitlik və tərəqqi fonunda doğma rayonun hərtərəfli inkişafı üçün əllərindən gələni əsirgəmirlər. Bu gərgin əmək, arzu və istəklər bəhrəsiz qalmır. Görünən budur ki, Saatlı rayonu hazırda özünün inkişaf və tərəqqisinin yeni mərhələsini yaşayır. Bu yolda onlara yeni parlaq uğurlar arzulayırıq.



***Səməd HÜSEYNOĞLU,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***